**UOT 82**

# TƏSƏVVÜF VƏ TƏSƏVVÜFDƏ İNSANA VERİLƏN DƏYƏR

**Rəna RZAYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 21 iyun 2024; çapa qəbul edilmişdir: 3 iyul 2024; online-da çap edilmişdir: 17 sentyabr 2024.

Received: 21th of June, 2024; accepted: 3th of July, 2024; published online: 17th of September, 2024.

**Açar sözlər:** *Şərq, təsəvvüf, zöhd, əxlaq, təsfiyə, təzkiyə, təslimiyyət, vüslət*

## Giriş

Təsəvvüf İslamın mənəvi və mistik ənənəsini əhatə edən bir yoldur. Bu yol insanı ilahi həqiqətə aparır. Təsəvvüfdə insanın rolu Allah ilə olan əlaqəni dərinləşdirmək, bağları bərkitmək və kamilliyə çatmaqdır. Təsəvvüfdə insanın əsas məqsədi nəfsini təmizləmək, nəfsi üzərində hakim olmağı bacarmaq, ruhunu inkişaf etdirərək, yüksəldərək Allahın sevgisini və mərhəmətini qazanmaqdır. Şəriət, təriqət, mərifət və həqiqətdən keçərək bu yolu gedənlər müxtəlif praktikalar və zikr vasitəsilə Allahı xatırlayır, nəfslərini təmizləyir və ruhlarını yüksəldirlər. Təsəvvüfdə insanın kamilliyə çatması bir çox şərtlərə bağlı olduğu kimi, eyni zamanda, insanın başqalarına xidmət etməyinə, mərhəmət və ədalətinə də əsaslanır. Məhz buna görə məşhur şeyxlər, sufilər, övliyalar insana xüsusi dəyər vermiş, onlara öz münasibətlərini bəyan etmişlər.

## 1. Təsəvvüfdə insan

Təsəvvüfdə insana verilən dəyər həm çox yüksək və həm də çox təzadlıdır. Sufilər insana yüksək dəyər verir və onu İlahi yaradılış kimi qəbul edirlər. Təsəvvüfün əsas prinsiplərindən biri hər bir insanın Allahın bir təcəllisi olduğuna və içində Allahın nurunu daşıdığına inamdır. Təsəvvüfün bir qolunda insan özünü heç bilib, Allahda həll olunduğunu iddia edirsə, digər qolunda insan özünü Allaha bərabər, Allahın bir zərrəsi sanır. Əslində, bu iki yanaşma eynilik təşkil edir. Allahda yox olmaqla Allahın bir zərrəsi olmaq, nəticə etibarilə, eyni anlamı ifadə edir. Əsas prinsip isə sufinin yüksək əxlaqi keyfiyyətlərə malik olması, öz mənini yenməsi və nəhayət, ilahi eşqə köklənməsidir.

“Allahda yox olmaq” anlayışı insanın mənəvi səyahətinin ən yüksək mərhələlərindən biridir və buna “fəna fillah” deyilir. Bu anlayış insanın öz varlığını və şəxsi istəklərini tamamilə yox etməsi və Allahın iradəsinə tam olaraq tabe olması deməkdir. “Fəna fillah” mərhələsinə çatmış bir sufi öz varlığının yox olduğunu və yalnız Allahın var olduğunu hiss edir. Bu vəziyyəti dərk etmək sufinin Allahla birləşməsinin və ilahi həqiqəti dərk etməsinin zirvəsidir. “Fəna fillah” konsepti bir neçə əsas mərhələ ilə izah olunur:

*1.Nəfsin təmizlənməsi:* Bu mərhələdə insan bütün nəfsanə hisslərdən təmizlənir, eqosundan azad olmağa səy edir. İnsan bu mərhələdə öz məninin kiçikliyini və Allahın böyüklüyünü dərk edir.

*2. İbadət və zikr:* Sufi zikr etməklə mütəmadi Allahı xatırlayır və ona yaxınlaşır. Bu əməllə sufi hər zaman Allahın adlarını təkrarlayaraq onun varlığını hiss edir, anlayır. Bu,

**aparıcı elmi işçisi, AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
e-mail: rzayeva1958@icloud.com
DOİ: https://doi.org/10.30546/25194011.2024.13.4.023

insanın düşüncələrini və qəlbini Allahla doldurmasına vasitəçi olur.

3. *Təsəvvüf yolunda mürid-mürşid münasibətləri:* Mürid mürşidinin təlimatı əsasında yola çıxır və mürid ancaq mürşidinin verdiyi istiqaməti tutaraq "fəna fillah" mərhələsinə çata, daha doğrusu, yaxınlaşa bilir.

4. *Allahla birlik:* "Fəna fillah" mərhələsinə çatmış sufi öz varlığının yox olduğunu və yalnız Allahın var olduğunu dərk edir. Bu mərhələdə sufi Allahla tam birlik içində olur və Onun iradəsinə tam tabe olur. Sufi öz iradəsini Allahın iradəsinə uyğunlaşdırır və hər bir şeyi Allahın rizasını qazanmaq üçün edir.

5. *Bəqa:* "Fəna fillah" mərhələsindən sonra sufi bəqa (Allahda qalıcı olmaq) mərhələsinə çatır. Artıq bu mərhələdə sufi Allahla birlik şəklində yaşayır və Onun nurunu yaymağa çalışır. Bu mərhələdə sufi Allahın nurunu ətrafa yaymaq üçün hamıya xidmət etməyə, insanları doğru yola çağırmaqla mənəvi inkişaflarına kömək etməyə çalışır.

Allahda yox olmaq təsəvvüf yolunun ən yüksək zirvələrindən biri hesab olunur və bu mərhələyə çatmaq sufinin mənəvi səyahətinin tamamlanması deməkdir.

Təsəvvüfdə "Allahın bir zərrəsi olmaq" anlayışı isə insanın Allahın sonsuz varlığı və nurunun bir hissəsi olduğunu qəbul etməsi deməkdir. Bu anlayış insanın öz mənliyini Allahın iradəsi və varlığı ilə birləşdirməsi, öz varlığını Allahın varlığı içində əridərək Onun bir təcəllisi olduğunu dərk etməsidir.

Bu konsept bir neçə əsas prinsipləri əhatə edir:

1. *İlahi təbiətin dərk edilməsi:* Sufi inanır ki, Allah kainatın hər bir zərrəsində mövcuddur və hər şey Onun iradəsi ilə yaranmışdır. Bu səbəbdən hər bir insan da Allahın ilahi təbiətinin bir zərrəsi və təcəllisidir.

2. *Vəhdəti-vücud:* Bu təsəvvüf fəlsəfəsi bütün varlığın Allahın bir təcəllisi olduğunu və ayrı-ayrı varlıqların əslində Onun birliyi içində olduğunu vurğulayır. İnsan da bu birliyin bir parçası olaraq Allahın nurunun bir parçası kimi qəbul edilir.

3. *İlahi sevgi və mərhəmət:* Allahın bir zərrəsi olmaq insanın içində Allahın sevgisini və mərhəmətini daşıdığını dərk etməsini, bu sevgi və mərhəməti bütün ətrafa yaymağa çalışmasını tələb edir. Bu sufilər hər bir insanın Allahın sevgisini və mərhəmətini paylaşmaq missiyasına malik olduğunu qəbul edirlər.

4. *Ruhun kamilləşməsi:* Allahın bir zərrəsi olduğunu dərk edən sufi öz ruhunu kamilləşdirmək və nəfsini təmizləmək üçün çalışır. Bu proses sufinin Allahla daha da yaxınlaşmasına və ilahi həqiqəti dərk etməsinə kömək edir.

5. *İlahi hüzurda yaşamaq:* Sufi hər an Allahın hüzurunda olduğunu və onun varlığının bir hissəsi olduğunu hiss edərək yaşayır. Bu, sufinin həyatını Allahın iradəsinə uyğun olaraq və onun rəğbətini qazanmaq üçün yaşamasına səbəb olur.

Beləliklə, "Allahın bir zərrəsi olmaq" anlayışı insanın Allahla olan dərin mənəvi əlaqəsini və Onun sonsuz varlığının bir hissəsi olduğunu dərk etməsini ifadə edir. Bu anlayış sufinin mənəvi səyahətində yüksək mərhələni təmsil edir və onu daha da kamilliyə və ilahi həqiqətə yaxınlaşdırır.

## 2. Təsəvvüfdə insana verilən dəyər

Mövlana Cəlaləddin Rumi sufilərin əxlaqi keyfiyyətlərini və qəlb gözəlliklərini yüksək qiymətləndirmişdir. Artıq mübahisəsiz qəbul olunmuş faktdır ki, Mövlana təsəvvüfün ən qabaqcıl nümayəndələrindən biridir. Təsəvvüf onun yaradıcılığının əsasını təşkil edir. Onun təsəvvüf düşüncəsinin əsasında isə eşq durur (10, s.81-82).

O da məlumdur ki, təsəvvüfün digər parlaq nümayəndələrindən biri də Yunus Əmrədir. Mövlana və Yunus Əmrə eyni dövrün və eyni yolun nümayəndələri olub, eyni düşüncə tərzinə malik olmuşlar. Onların fikrincə insan həm əşrəfi-məxluqat (yaradılmışların şərəflisi), həm də nishai-kübradır (Allahın kiçik bir parçasıdır). Allahın sifətləri zərrə-zərrə insanlarda mövcuddur (8, s.12). Təsəvvüfdə insan nəfsindən nə qədər yüksəkdə

durursa, Mənini də bir o qədər aşağıda bilməlidir. İnsan nəfsanə nə varsa, onu özündən kənar tutmalıdır.

Allaha gedən təriqət yolunu eşqlə başlayan sufi aqilləri "ölmədən öncə ölə bilmək" fəlsəfəsinə vaqif idilər. "Ölmədən öncə ölmək" nə deməkdir. "Ölmədən öncə ölmək" ifadəsi mistik və mənəvi bir anlayışdır. Bu anlayış daha çox sufi və təsəvvüf ədəbiyyatında istifadə olunur. Bu ifadə insanın həyatında maddi dünyadan ayrılaraq mənəvi təcrübə yaşamasını, eqosunu və dünya arzularını öldürərək daha yüksək bir şüur halına çatmasını ifadə edir. Bu, insanın öz eqosundan və mənəvi qaranlıqdan qurtulması və daha yüksək bir mənəvi səviyyəyə yüksəlməsi ilə əlaqələndirilir. Bu anlayış özünü kəşf etmə və daxili sükunət tapma yolunda fərqli bir mərhələ kimi qəbul edilir. İnsan özünün aciz, dünyanın aldadıcı, axirətin isə çox yaxın olduğunu ancaq öləndə anlayır. Bu kəlam bizi ölmədən əvvəl ölümü düşünüb, dərk edib əməllərimizi düzəltməyə, günahlardan uzaqlaşıb daha çox savab qazanmağa çağırır. Sözün əsl mənasında, ölümdən öncə ölməyi ancaq seçilmiş insanlar bacarırlar. Bu müddəanı dinləyən, qavrayan insan dünyanı müsafirxana, vücudunu isə bir əmanət bilər. Ruhunu və qəlbini maddi dünya bataqlığında batırıb bada verməz.

Bu fəlsəfənin özündə ehtiva etdiyi sirri açıqlamaq üçün isə sufizmin öz köklərini atdığı əsri araşdırmaq lazımdır... (13, s. 102).

Mövlananın insana verdiyi dəyər onun zamanın mütəsəvviflərinə nisbətdə ən üstünüdür. Mövlana deyir: "O, insanlıq şüurunu Quran-i Kərim ayələrinin işığı altında düşünmüş, insan olmağın fəzilətlərini ən özəl biçimdə dilə gətirmişdir" (14, s. 51).

Təsəvvüfü anlamaq, onun prinsiplərini araşdıraraq dərk etmək üçün təsəvvüf tarixini, sufilərin yaşam tərzini, onların dünyagörüşünü bilmək və öyrənmək lazımdır.

Təsəvvüf Allaha itaətdir, tapınmaqdır, sığınmaqdır, saflıqdır, əxlaqdır, dürüstlükdür, nəfsə hakim olmaqdır, səxavətdir, halal yaşayıb, haramdan çəkinməkdir, şükranlıqdır, təvazökarlıqdır... Təsəvvüfə veriləcək təriflərin sonu yoxdur və bunların hər biri ali insanın ən ümdə xüsusiyyətləridir.

Mənbələrdə Təsəvvüf on müddəa ilə ümumi şəkildə təqdim olunur:

1. *Təsəvvüf zöhddür*: zöhd dünyadan üz çevirib Allaha yönəlməkdir.
2. *Təsəvvüf gözəl əxlaqdır*: təsəvvüf ilə əxlaq bir-birinə sıx bağlıdır.
3. *Təsəvvüf təsfiyədir, qəlb təmizliyidir*: təsfiyə qəlbi kirdən, kindən, pisliklərdən təmizləməkdir.
4. *Təsəvvüf təzkiyədir*: təzkiyə nəfsə hakim olmaqdır.
5. *Təsəvvüf istiqamətdir*: istiqamət Yoldur-Haqq Yoludur.
6. *Təsəvvüf Allaha tam təslimiyyətdir*: Allaha təslimiyyət Allaha boyun əyməkdir, itaətdir.
7. *Təsəvvüf Haqqa vüslətdir*: Haqqa vüslət təsəvvüfün çatmaq istədiyi son hədəfdir. Ona çatmaq, Onunla olmaqdır.
8. *Təsəvvüf İslamın ruhani həyatıdır*: ruhani həyat sufinin içində olduğu bir sifətdir.
9. *Təsəvvüf batini elmdir*: batinilik qəlbə, iç dünyasına bağlılıqdır
10. *Təsəvvüf xəvasa aid lədün elmidir*: lədün elmi, Allahın istədiyi bəndələrinə verdiyi hadisələrin sirrini bilmə qabiliyyətini verməsidir (10, s. 18-33).

Gördüyümüz kimi, bu tezislər təsəvvüfün prinsiplərini müəyyən qədər açır.

Təsəvvüfdən söz açıb müqəddəs hədisləri xatırlamamaq mümkün deyildir. İslam dininin, xüsusilə də müsəlman hüququnun Qurani-Kərimdən sonra ikinci mühüm və başlıca qaynağı hədislər sayılır. Məhəmməd peyğəmbərin (s.) mübarək kəlamlarını və o həzrətin həyatı, davranışı və əməlləri ilə bağlı rəvayətləri özündə birləşdirən hədislər (ərəb mənşəli «hədis» sözünün lüğəvi anlamı «yeni söz», «yeni xəbər», «rəvayət», «hadisə» mənalarına uyğun gəlir) sonuncu səmavi din olan islamın, xüsusilə də islam əxlaqının

başlıca prinsiplərini özündə birləşdirir və bu baxımdan böyük ictimai-siyasi və əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Məhz buna görə də hədislər müsəlman Şərqində bədii ədəbiyyatda da geniş yayılmış, onun inkişafı və zənginləşməsində müstəsna rol oynamışdır (12, s. 342). Məhz bu hədislər, üzərindən nə qədər zaman keçsə də, məsəl şəklində uzunömürlü yaşamaq hüququ qazanmışdır. Bu gün də bu hədislər nümunə kimi cəmiyyətdə xüsusi yerə, məqama malikdir. Qeyd etdiyimiz kimi, bu hədislərin təsəvvüf fikrinə də xüsusi təsiri olmuşdur, belə ki, təsəvvüf dünyagörüşü dini dünyagörüşünə əsaslanaraq yaranmışdır.

Təsəvvüf görüşlərinə görə, Allah hər kəsi eyni yaratmışdır. Vəzifəsindən, səlahiyyətindən, maddi durumundan, dinindən, dilindən, irqindən asılı olmayaraq, bütün insanlar, kainatdakı bütün varlıqlar Allahdan qopan zərrələrdir. Sonda onlar geriyə Allaha qovuşacaqlar (2, s. 353). Göründüyü kimi, yenə də insanın Allahla vəhdət təşkil etdiyi, Ondan gəlib, sonda yenə də Ona döndüyü aparıcı fikirdir. Məhz bu fikir təsəvvüfün əsas qayəsini təşkil edir.

Təsəvvüf özünün geniş daxili quruluşu və məzmunu ilə iman əhlinin vazkeçilməz İslam təcəllisi, bərəkəti və yetkinliyidir (16, s. 9).

Ümumiyyətlə bir əxlaq kodeksi, elm ensiklopediyası, qanun məcəlləsi olan, sonsuz özəlliklərə malik, kitablar kitabı müqəddəs Qurani-Kərimin və hz. Peyğəmbərin hədisləri əsasında yaranmış təsəvvüf məhz bu təlimlərə söykənərək inkişaf etmişdir. “Təsəvvüf” bir əxlaq nümunəsidir. Bu əxlaqın əsasında isə, şübhəsiz ki, Peyğəmbər əxlaqı durur.

Dinimizin əsas tərkib hissəsi olan əxlaq problemi bu gün də öz aktuallığını itirməyib və bəlkə də daha artıq maraq dairəsindədir. Birmənalı qəbul olunmuş əxlaq nümunəsi, şübhəsiz ki, Peyğəmbərimizdir və məhz ona xitabən uca Allah buyurur: *“Həqiqətən, sən böyük bir əxlaq sahibisən”* (8, s. 357).

Daha sonra oxuyuruq: “Həqiqətən, Allahın elçisi Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl nümunədir” (8, s. 257).

Gördüyümüz kimi, iman, Haqq yolunda gedənlərin əsas örnəyi, nümunəsi, məhz, Məhəmməd peyğəmbərdir və “təsəvvüf” yolunda olanlar da bu yoldan bəhrələnir, bu yolu getməyə cəhd göstərirlər (8, s. 3-4).

Təsəvvüf Quranın və hz. Məhəmmədin göstərdiyi inam əsaslarına bağlı olaraq (şəriət) ibadət, zikr, təfəkkür, nəfsə hakimliklə ruhu saflaşdırmaq (təriqət) və nəticədə qəlbən öz mənliyindən və dünyadan keçərək sadəcə Allaha bağlanmaqdır (3, s. 11).

Qeyd etdik ki, təsəvvüf tezislərinin əsası Allaha tapınmaq, Allaha itaət etməkdir. Bu fikirlə bağlı, bu fikri özündə əks etdirən bir çox kəlam, hədis vardır. Bunlardan biri belədir:

İslam alimi Taberani buyurmuşdur: “Kim qəlbini Allaha bağlayarsa, Allah Möminlərin qəlbində ona sevgi və mərhəmət yaradar. Hər kəs onu sevər. Allah xeyirli olan hər şeyi ona tez bir zamanda yetişdirər (15, s.475).

Artıq məlum faktdır ki, təsəvvüfün əsasında əxlaq durur və dedik ki, təsəvvüfü araşdırmaq, öyrənmək üçün onun mövzusunu, məqsədini, qaynağını, zühurunu, onun mistisizmini öyrənmək lazımdır. Təsəvvüfün mövzusu dedikdə mərifətullah olub mənəvi təcrübə ilə bir elm olduğu üçün sufi həyatının yalnız kamil bir mürşidin rəhbərliyində yaşamaqla öyrənilə bilən bir təlim nəzərdə tutulur. Hər mürşidin yanaşma tərzi, seçdiyi yol onun bu təlimdəki mövzusunu müəyyənləşdirir (4, s. 21). Təsəvvüfün mövzu və məqsədi insana özünü tapmaqda, özünü tanımaqda yol göstərməkdir, yəni nəfsə hakim olub, şeytana boyun əyməmək, zahirdən uzaqlaşıb, batinə yaxınlaşmaq, Haqqa tapınmaq kimi xüsusiyyətləri aşılamaqdır (12, s. 22). Sufilərə və sufilik tədqiqatçılarının əksəriyyətinə görə, təsəvvüfün ilkin qaynağı Quran və hədislərdir. Təsəvvüfün hz. Peyğəmbər dövründə adı olmasa da, məzmunu mövcud olmuşdur. Çünki Quranda bəhs olunan təqva, zikr, tövbə, riza kimi qəlbə aid halların necə gerçəkləşəcəyini tətbiqi olaraq öyrədən zahidlər

və sufilər olmuşdur (10, s. 22).

Seyid Yəhya Bakuvinin "Şəfa əl-əsrar" kitabına əsaslanaraq təsəvvüfün Hz. Məhəmmədin və səhabələrinin dövründə "zöhd", bu yolun yolçularını isə zahid adlandırıldıqlarını söyləmək olar. "Zöhd" dünyəviliyin əksi olub təsəvvüfün əsasını təşkil edir. Zahid isə bu yolun yolçusu olmuşdur. Belə bir nəticəyə gəlmək olar ki, təsəvvüf çox əvvəl, yəni İslamın yeni meydana gəldiyi dövrlərdə mövcud olmuşdur (10, s. 23).

Ümumiyyətlə, təsəvvüfün iki önəmli cəhəti vardır: *tərbiyə almaq və bilik qazanmaq.* Təsəvvüf təlim və tərbiyəsində zikr etmək, təzkiyə (qəlbi təmizləmə, paklanma), təsviyə (ruhən saflaşma, zənginləşmə), rəbbanilik, mücahidə (nəfsə cihad etmək) etmək kimi əsaslar və gözəl nümunə ideyası təsəvvüf həyatının əsas şərtlərindən sayılır. Təsəvvüf fiqh, hədis elmi, təfsir və digər islami elmlərlə sıx bağlıdır. Təsəvvüfdə bilik qazanmaq özünü tanımağa, özünü dərk etməyə xidmət edir. Təsəvvüf elmi insana öncə özünü tanıma, sonra Allahını tanıma yollarını göstərir.

Böyük mütəsəvvif Şəhabəddin Sührəvərdinin təsəvvüf anlayışına verdiyi şərhindən anlamaq olur ki, bu, pedaqoji dillə desək, insanın özünütərbiyəsi, özünütəsdiqi, özünü kamilləşdirməsi və mənən zənginləşməsidir. O belə deyir: "Sufilik edən kəs özünə hesabat (əl-mühasəbə), özünənəzarət (əl-müraqəbə) və özünümüşahidə (əl-müşahədə) yolu ilə rəzilliklərdən çəkinib nəfsini paklandırmalı və kamilləşdirməlidir". Təsəvvüf əhli göstərir ki, iman (İslamı, Quranı, peyğəmbəri qəbul edənlər) və İslamdan (İslam qayda-qanunlarını yerinə yetirənlər) sonra ehsan (Allahı qəlblərində görüb, hiss edənlər) səviyyəsinə yüksələnlər ən böyük, ən gözəl sevgili olan Allahı öz daxillərində görmənin şövq və həyəcanı ilə yaşaya bilirlər. Bu həyəcan isə insanlara Allahın yaratdığı hər şeyi sevməkdir. Hər şeyi sevmək Allahı sevməyə qayıdır. Bu sevginin içərisində ən gözəli və ən şərəflisi olan insanı sevmək, onu yüksək qiymətləndirməkdir. İnsanoğlunun ən uzun axtarışı "Özünü axtarış" olmuşdur. Təsəvvüf də insanın kainatda özünü tanıma səylərinin nəticəsidir. İnsan özünü tanımağa yönələrkən "Yaradan və yaranmış" haqqında düşüncə ilə baş-başa qalır. Bu iki qavramın vəhdətdə, birlikdə qəbul edilməsi təsəvvüfün əsasını təşkil edir. "Vəhdəti-vücud" ("Tək varlıq") anlayışı ilə var olan tək "O"dur. Var olan "O"dursa, insan da "O"dur, "Haq" da "O"dur. Varlıq tək "O"dur. "O"na çatmağın yolu isə eşqdir (17).

Təsəvvüfün əməllərində möminlərə təsir etmək uğrunda mübarizədə rəqibləri sünni ilahiyyatçıların müqavimətinə baxmayaraq, XII-XIII əsrlərdə təsəvvüf, ümumiyyətlə, müsəlman icmasının dini həyatında mühüm elementə çevrilir. Bu təlimin ideyalarının leqallaşmasında böyük xidmət sufilər tərəfindən hazırlanmış dinin mənəvi-estetik qaydalarının dəyərini və mənanın dərindən dərketmə üsullarını qəbul edən əl-Qəzaliyə aiddir (1, s. 553).

Ümumiyyətlə, təsəvvüfün İslam məfkurəsi çərçivəsində nəzəri baxımdan əsaslandırılması məşhur ilahiyyatçı Əbu Həmid Məhəmməd Qəzalinin adı ilə bağlıdır. Quran, Peyğəmbər sünnəti və başqa İslam dəyərlərindən məharətlə faydalanan ariflər irfanın nəzəri dayaqlarının formalaşması, bir növ İslamla mötədil təsəvvüf arasında barış yaradılması istiqamətində dəyərli işlər görmüşlər. Belə bir çətin və önəmli vəzifəni İmam Qəzali həll etmişdir (6, s. 38). İmam Qəzali təsəvvüf haqqında deyir: *"Təsəvvüf qəlbi Allaha bağlayıb, Ondan qeyriləri ilə əlaqəni kəsməkdir"* (9, s.10).

İmam Qəzalinin təsəvvüfə meyli təkcə bu təlimin nəzəri müddəaları ilə bağlı deyildi, o, əməldə həmin xəlvət anlarını yaşamışdı. Başqa bir tərəfdən, bu böyük ruh adamı öz istədiyi ali həqiqəti oxuduğu və tədris etdiyi elmlərin heç birində tapa bilmirdi. O hətta fəlsəfəni bu yöndə aciz bilir, onu küfr və heyrət mayası hesab edirdi. Fransız şərqşünası Ernest Renanın (fransız şərqşünası və semit alimi, semit dilləri və sivilizasiyaları üzrə mütəxəssis, din tarixçisi, filoloq, filosof, bibliyaşünas və tənqidçi) (18) dediyinə görə, fəlsəfədə çox çalışıb ümidsiz qalanlar heyrətə düşür və sonra irfana pənah aparırlar, onlar eyni zamanda, fəlsəfənin quru düsturlarına qarşı mübarizə aparırlar (6, s. 45-46).

Məhz buna görə hesab olunur ki, elmin tükəndiyi yerdə fəlsəfə, fəlsəfənin tükəndiyi yerdə din, dini fəlsəfə durur.

**Nəticə**

Təsəvvüfdə (sufizm) insana verilən dəyər insaniyyətin mərkəzində Allahı görmək və Ona yaxınlaşmaqla əlaqədardır. Təsəvvüf fəlsəfəsi insanın mənəvi və ruhani yüksəlişinə köklənir və bu yüksəliş yolu ilə insan Allahın nurunu içində daşıyaraq, kamillik və təmizliyə çatmağa can atır. İnsan Allahın bir parçası və Onun yaratdığı ən üstün varlıq olaraq qəbul edilir. Sufi təlimlərində insana verilən dəyər müəyyən prinsiplərə əsaslanır:

*1. Məhəbbət və eşq:* Təsəvvüfdə məhəbbət Allahın insanlara olan sevgisinin təzahürü kimi qəbul edilir. Burada insanın da Allaha və bütün varlıqlara qarşı sevgi və mərhəmət duyğuları ilə dolu olması vacib şərtdir.

*2. Təvazökarlıq və sadəlik:* Sufilər təvazökarlıq və sadəliyi çox yüksək dəyərləndirirlər. Bu dünyada maddi zənginlik və mövqe arxasınca qaçmaq əvəzinə, insanın mənəvi zənginlik və sadə həyat tərzinə üstünlük verirlər.

*3. Mənəvi yüksəliş:* Sufilər insanın mənəvi inkişafına, təmizlənməsinə xüsusi diqqət verirlər. Bu, nəfsin (eqo) tərbiyə edilməsi və ruhun Allahla birləşməsinə yönəlmiş praktikalar vasitəsi ilə həyata keçirilir.

*4. Qardaşlıq və birlik:* təsəvvüfdə bütün insanlar qardaş olaraq qəbul edilir və birliyin, həmrəyliyin önəmi vurğulanır. Sufilər insanlar arasında sevgi, anlaşma və birgəyaşayışın təşviq edilməsi üçün çalışırlar.

*5. Zikr və dua:* Sufilərdə Allahı xatırlamaq və Ona dua etmək insanın mənəvi yolçuluğunun mərkəzində durur. Zikr və dua vasitəsilə insan Allahla bağ qurur və onunla yaxınlaşır.

Bu prinsiplər təsəvvüfdə insana verilən dəyərin əsaslarını təşkil edir və insaniyyətin ali məqamda görülməsini təmin edir.

## ƏDƏBİYYAT


1. Baxşəliyeva G., Abbasov Ə. İslam. Ensiklopedik lüğəti. Bakı: Elm, 2013, 656 s.
2. Baxşıyeva Ü. Yunus İmrə poeziyası və klassik ədəbi ənənə // Şərq filologiyasi məsələləri. Bakı: Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2019, 462 s.
3. Rıhtım M. Seyid Yəhya Bakuvi. Bakı: Elm və təhsil, 2013, 216 s.
4. Seyid Yəhya Bakuvi. Şəfa əl-əsrar (sufilik sirləri), hazırlayan: M.Rıhtım, Bakı: Elm, 2013, 408 s.
5. Bünyadov Z., Məmmədəliyev V. Qurani-Kərim. Bakı: Qismət, 2004, 390 s.
6. Əbu Hamid əl-Qəzali. Kimyayi-səadət. I c., Bakı: Şərq-Qərb, 2013, 646 s.
7. Əhmədova G. Mövlana eşqinin sufi qanadları // Mövlananın fəlsəfəsi və poeziyası. Bakı: Xəzər Universiteti, 2021, 226 s.
8. Hümmətova X. Yunus Əmrə. Risalətün-nüshiyyə. Bakı: Elm və təhsil, 2013, 195 s.
9. İskəndərov E., Rıhtım M. Seyid Yəhya Bakuvi. Bakı: Elm və təhsil, 2013, 216 s.
10. Manafov R. Təsəvvüf tarixi. II nəşr. İslam Universiteti, 2011, №4, 364 s.
11. Məhəmməd ibn İsmail əl-Buxari. Peyğəmbər əxlaqı. Bakı: Adiloğlu, 2004, 498 s.
12. Nağısoylu M. Seçilmiş əsərləri. I c., Bakı: Elm, 2017, 634 s.
13. Şəkixanova M. Sufizmin eşq konsepsiyasi: Ruminin eşqi / Beynəlxalq Konfrans. Mövlananın fəlsəfəsi və poeziyası. Xəzər Universiteti, 2021, 226 s.
14. Bozkurt T. Gönüllər sultanı Mevlana. İstanbul: Halk kitapevi, 2011, 208 s.
15. Dikmen M. 1001 hədis. İstanbul: Cihan Yayınları, 2003, 488 s.
16. Topbaş O. N. İmandan İhsana. Tasavvuf. İstanbul: Erkam Yayınları, 2016, 534 s.
17. https://azkurs.org/derslik-ii-cild-azerbaycan-respublikas-tehsil-

nazirliyinin.html?page=48
18. https://tr.wikipedia.org/wiki/Ernest_Renan

***Резюме***

***Рена Рзаева***

***Тасаввоф и человеческий фактор в тасаввофе***

Основная цель представленной статьи – место и положение человека в суфизме, оценка и значение, придаваемые человеку. Известно, что суфизм, берущий свои корни из аскетизма, представляет собой религиозно-философское учение, прошедшее долгий путь, прошедшее через мир и дошедшее до конца. Здесь также затронута тема значения человека, значение придаваемое человеку и его совершенству. В статье говорится о чертах характера, которыми должен обладать человек, чтобы вырасти суфием, и об ответственности за распространение этих свойств на окружающих после достижения определенной точки. Кроме того, рассматривается также оценка и ценность, придаваемая человеку мистиками, занимающими высочайшее положение в истории суфизма. Исследуются условия, которые это учение ставит перед людьми, идущими по пути суфизма. В статье рассмотрены в той или иной степени и такие принципы суфизма, как «раствориться в Боге» и «быть частицей Бога». Кроме того, нашли отражение в статье высшая нравственность и высшие характеристики, свойственные человеку. Здесь упоминается, что важным условием является то, что человек, следующий по пути суфизма, всегда должен быть выше своих возжеланий и ниже своего "я". В статье в той или иной степени рассматривается невозможность сосуществования человеческого «эго» и суфизма. В статье также в некоторой степени освещены моменты «фана» и «бага», занимающие особое место в суфизме.

Основная цель статьи, как мы уже говорили, – показать необходимость наличия у суфия высшей нравственности, свойственной человеку. Здесь также упоминается ценность, которую суфии придают людям и которую придают суфиям. Говорится о качествах, которые суфии хотят видеть в людях, и об их стараниях пропогандировать это людям. Однозначно принято, что лучшим и высшим примером нравственности, несомненно, является наш Пророк, и путешественники «суфизма» также извлекают пользу из этого пути и стараются следовать по этому пути. В статье рассматриваются свойства путников движения этой дороги и принципы, на которых основаны эти свойства. Здесь исследуются такие аспекты, как аскетизм, нравственность, утонченность, смирение и т. д. Вообще человеческая тема в суфизме очень интересна во всех смыслах.

**Ключевые слова:** *Восток, суфизм, аскетизм, мораль, утонченность, утонченность, капитуляция, вуслат*

***Summary***

**Rena Rzayeva**

***Tasavvof and the Human Factor in Tasavvof***

The main purpose of the presented article is the place and position of man in Sufism, the assessment and value given to man. It is known that Sufism, which took its roots from asceticism, is a religious-philosophical teaching that has come a long way and passed through the world and reached the end. Here, the value given to a person, to the perfection of a person, is also very interesting. The article talks about the characteristics that a person should have in order to grow up as a Sufi, and the responsibility of spreading these characteristics to others after reaching a certain point. In addition, the evaluation and value given to human beings by the mystics who have the highest position in the history of Sufism is also considered. The conditions that this teaching puts in front of people who have followed the path of Sufism are investigated. In the article, the principles of Sufism such as "absence in God" and "being a particle of God" have been examined and presented to some extent. In addition, the highest morals and the highest characteristics of a person have been reflected. It is mentioned here that it is an important condition that a person who has followed the path of Sufism should always be superior to the self and inferior to the Self. In the article, the impossibility of human "ego" and Sufism coexisting is considered to some extent. In the article, the points of "fana" and "baga", which have a special place in Sufism, are also highlighted to some extent.

The main purpose of the article, as we have said, is to show the necessity of the Sufi having the highest morality characteristic of a human being. Here, the value given by Sufis to people and given to Sufis is also mentioned. It has been talked about the qualities that Sufis want to see in people and their efforts to instill it in people. It has been unequivocally accepted that the best and highest example of morality is

undoubtedly our Prophet, and the travelers of "Sufism" also benefit from this path and try to follow this path. The article examines the characteristics of road users of this road and the principles on which these characteristics are based. Here, asceticism, morals, refinement, refinement, surrender, etc. such aspects are investigated. In general, the human subject in Sufism is very interesting from every aspect.

**Key words:** *East, Sufism, asceticism, morals, refinement, refinement, surrender, vuslat*

Məsul katib fil.e.d., prof. Şıxıyeva Səadət Məmməd qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.